# Səni gözəlləşdirəcək, yaralarını sağaldacağıq, Şuşa!



***Şuşa! 269 il öncə əsası qoyulan qala şəhərimiz, dağlar başındakı incimiz. Pənahabadımız, mədəniyyət pənahımız! Dövlət başçımız Şuşa şəhərini Azərbaycanın mədəniyyət paytaxtı elan edib. Öncə vəd verdi, sonra azad etdi, daha sonra mədəniyyət paytaxtı elan etdi, bundan az sonra, xanımı və qızı ilə Şuşaya səfər etdi, düşmənə Şuşadan ismarıclar göndərdi.***

Şuşa bizim şəhərdir, biz salmış, biz dirçəltmiş, oranı biz Şuşa etmişik. Şuşa Azərbaycan xanlıqqurma mədəniyyətinin, dövlətçilik mədəniyyətinin, şəhərsalma mədəniyyətinin, qalatikmə mədəniyyətinin təntənəsidir. Əslində, mədəniyyət sözünün bir anlamı da "şəhərsalma"dır (ərəbcə "Mədinə" sözündən gəlir).

Şuşada salınmış 17 məhəllənin adlarına diqqət edək: Seyidli, Culfalar, Quyuluq, Çuxur məhəllə, Dörd çinar, Dördlər qurdu, Hacı Yusifli, Çöl qala, Qurdlar, Saatlı, Köçərli, Mamayı, Xoca Mərcanlı, Dəmirçilər, Hamamqabağı, Merdinli və Təzə məhəllə… Keçmişi adından bəlli. Bəlli ki, bu şəhər hər halı ilə Azərbaycan şəhəridir.

Bütün insanlar eyni mədəniyyətə malik deyildir, təbii. Mədəniyyət tək deyil, çoxçeşidlidir. Hansı zamanda və məkanda yaşayırsa – yaşasın, bir-birinə qonşu olduqları üçün, sözün geniş anlamında, eyni təfəkkürə, düşüncəyə sahib olan toplumların birliyinə "mədəni təbəqə", "mədəniyyət zümrəsi" deyilir. Mədəniyyət, bu toplumlar arasındakı ortaq təsisatların məcmusudur. Kulturoloq alimlər belə vurğulayırlar.

Bu yerdə biz də vurğulayaq ki, öz korafəhmliklərini unudub Şuşanı "Şuşi" kimi qəbul etdirməyə çalışan xəstə erməni düçüncəsi (daha doğrusu, düşüncəsizliyi), bir dönüb özünə baxmır: əgər sən bir ölkə miqyasında başqa xalqlara, millətlərə yaşama şansı tanımırsansa, onu balaca bir şəhərdə necə tanımış ola bilərsən? Şuşa adı mədəniyyətlə qoşa çəkilirsə və sən birgəyaşayış mədəniyyətinə uzaqdan da uzaqsansa – bugün Ermənistan boyda mədəniyyət xarabalığında monoetnik "dövlət" qurmusansa, nə əcəb, Şuşada multikultural cəmiyyət qurmağa qabil oldun? Buna hansı zehniyyətsiz, məntiqsiz inanar? Şuşa o xalqa aid ola bilər ki, o, başqa xalqlara, mədəniyyətlərə, dinlərə qarşı dözümlüdür. Belə bir dözüm ermənilərin, erməni toplumunun, ən müxtəlif dönəmlərdəki siyasi-hərbi başbilənlərinin təbiətinə xas olmayıb, tam tərsinə, o təbiətsiz təbiətlə ziddiyyət təşkil edib. Məsələn, Kəlbəcərdə qanunsuz məskunlaşmış erməni ilə Şuşada qanunsuz məskunlaşmış erməni arasında azacıq fərq olsa da, xislətləri eynidir, mədəniyyətsizlikləri eynidir: Kəlbəcərli ola bilməyən erməni unitaz, şuşalı ola bilməyən erməni isə onlara aid olmayan evlərdən, idarə və müəssisələrdən "istilik radiatorlarını" söküb aparıb…

Biz isə Şuşanın mənasını özündən böyük bilmişik, elə qəbul edirik, həmişə də belə biləcəyik. Şuşa bir Azərbaycan şəhəri olaraq, bizim üçün yalnız 39°45′ şantimetr en, 46°45′ şantimetr uzunluq, 5,5 kvadratkilometr sahənin adını ifadə etmir. Şuşa yalnız coğrafi məkan deyil, iqlim deyil, ürəyimizin, ruhumuzun coğrafiyasıdır, mədəniyyətimizin iqlimidir. Əlbəttə, Azərbaycan mədəniyyəti 1752-ci ildən başlamır, çox qədimdir. Bununla belə Şuşa kimi bir şəhər ideyasına gəlmək, onu şüurda bəsləmək, əməldə gerçəkləşdirmək köklü mədəniyyətin bəhrəsidir. Mədəniyyət qat-qatdır, mədəniyyət suxurlaşır, necə deyərlər, bir qat olmadan o biri qat mümkün olmur. Yəni Şuşa birdən - birə meydana gəlməyib, o, öncə şüurlarda, təfəkkürlərdə, mənəviyyatda formalaşıb və sonra dağlar başında şəhər ömrü çiçəklənib.

Şuşa, necə deyərlər, yalnız elmlə deyil, helimlə, yalnız fizika ilə deyil, metafizika ilə başa düşülə, dərk edilə, ruh edilə bilər...

Əlbəttə, bilənlər, onsuz da bilir ki, Şuşanın ermənilərlə heç bir bağlılığı yoxdur. Nə şəhər salınanda, nə ilk məskunlaşmada, nə qorunmasında, nə bugünündə, nə gələcəyində erməni(zim) var! Arada Şuşi kimi sırımağa çalışdıqları illər böyük tarix üçün heç nədir. Bir işğal rüzgarı idi, gəldi, keçdi. Bitdi o işğal da, o saxtakarlıqlar da.

***"Əziz Şuşa, sən azadsan!***
***Əziz Şuşa, biz qayıtmışıq!***
***Əziz Şuşa, biz səni dirçəldəcəyik!***
***Şuşa bizimdir! Qarabağ bizimdir!***
***Qarabağ Azərbaycandır!"***

– Bizim Azərbaycan dünyamıza, türk kainatımıza, insanlıq tarixinə, mədəniyyət aləminə altun dalğalarla yayılan 9 noyabr 2020-ci il tarixli bu səs Şuşanın əbədi müəyyənliyidir! Bu müəyyənliyin müəllifi, memarı başda Ali Baş Komandan İlham Əliyev olmaqla, müzəffər Azərbaycan Ordusudur!

Müzəffər Ali Baş Komandanın hərbi geyimdə Şuşaya səfəri, oradakı tarixi çıxış və verdiyi ismarıclar Şuşa zəfəri münasibəti ilə xalqa müraciətin davamı, inkişafıdır.

Dövlət başçısı deyir və eləyir. Dövlət başçısının sözü sözdür! Məhz bu məqamı dost da, düşmən də unutmamalıdır. Necə ki, 44 günlük müharibədən öncələr Prezident müxtəlif tribunalarda, platformalarda öz ismarıclarını verir, xəbərdarlıqlarını edirdi, indi də, dağların başındakı inci şəhərimizdən verilən ismarıclardan bütün maraqlı tərəflər öz payını götürməlidir.

Deməк, bundan sonra, bizim toplumun inkişafının çağdaş səviyyəsi, yaratdığımız, nəsildən-nəslə ötürdüyümüz maddi, mənəvi dəyərlər çiçəklənəcək Şuşada.

Şuşada fikir əkəcək, sənət becərəcək, mədəniyyət bəsləyəcəyik.

Şəhərimizi, qalamızı, incimizi abadlaşdıracaq, yaxşılaşdıracaq – yaralarını sağaldacağıq.

Torpağını havalandıracaq, becərəcəyik – işləyəcəyik Şuşamızda. Alın tərimiz düşən Şuşa torpağından xarı bülbüllər mayalanacaq – öz gül ömrünü yaşayacaq, yaşayışı güllənəcək, güllələnməyəcək daha...

Getdikcə, şuşalıların çalışma çevrəsi genişlənəcək, yenidən maarifçilik, şeir-sənət, sənətkarlıq… dağlar başında şəhərlilik yeni vüsət alacaq.

Şuşadan yenidən mədəniyyət axınları, şeir-sənət cərəyanları yayılacaq, yeni üslublar… axarına şahid olacağıq. Hegel mədəniyyəti "insan tərəfindən yaradılmış ikinci təbiət" deyə tərif etmişdi. Mədəniyyət kimi Şuşa da özlüyündə bir şansdır – birincisi, təbiət tərəfindən, ikincisi, həm təbiət, həm o təbiəti mədəniyyət təbiətinə, yaşama çevirən, o gözəl iqlimdən mədəniyyət iqliminə keçid edən biz azərbaycanlıların dünyaya bəxşişidir.

Sərvətdir Şuşa! Nemətdir Şuşa! Şuşa biz azərbaycanlılar tərəfindən yaradılmış, 240 il + 2 ay içində toplanılmış maddi və mədəni dəyərləri, qalanı əhatə edən təbiəti qiymətləndirmək üçün bizə verilmiş şansın özüdür, tərcümanıdır. Bu il 269 yaşı tamam olan Şuşamızın ömründən 28 il kəsilib… Şəhərlər də şəhərquranlar kimi xəstələnə, həbsə alına, girov götürülə bilər… deyək. Keçmiş olsun! Ordumuzun qoluna, ruhuna qüvvət!

Ermənilərdə şuşalılıq davranışı, necə deyərlər, qala mədəniyyəti yoxdur, nə etsələr də, mənimsəyə bilmədilər ki, bilmədilər. Hər bir insanın az və ya çox dərəcədə əldə etdiyi biliklər, vərdişlər, ictimai və istehsalat həyatı, savad–tərbiyə, yaradıcılıq, nəhayət, mənəvi–əxlaqi fəallıq onun mədəni səviyyəsini, mədəniyyətini ifadə edir, deyirlər. Buraya (bizim misalda, Şuşaya), yaradılmış sərvətlər, o cümlədən maddi sərvətlər də daxildir. XIX yüzilin sonu – XX yüzilin əvvəllərində Şuşa bütün Qafqazın musiqi mərkəzinə çevrilib. Şuşanı "Kiçik Paris", "Qafqazın sənət məbədi", "Azərbaycan musiqisinin beşiyi" və "Qafqazın konservatoriyası" adlandırırdılar.

Ermənilərin əli ilə, təhriki ilə, üç dəfə (1905, 1920 və 1992-ci illərdə) üç dəfə yandırılan Şuşanı, 2020-ci ildə də tərk etmədən öncə yandırmağa düşmənin sadəcə macalı olmadı. Yoxsa, ermənilərin başqasının evindən yaşamaq, çıxarkən də o evi yandırmaq kimi bir "milli mədəniyyət"ləri vardır... Qəhrəman, fədakar və peşəkar Azərbaycan əsgəri Şuşanı Şuşanın adına layiq azad etdi!

Şuşa şuşalılarla bütövdü, tamdı. Ruhu bir, ürəyi bir, iqlimi, sözü bir olmayanlar Şuşada kirayədə qalırmış kimi, qonaq kimi qala bilərdi… Düşmən kimi qalanlar bir daha Şuşa üzü görməyəcək, inşallah!

Müzəffər Ali Baş Komandanın Şuşa ismarıclarında bu məqam da vardı.

Dövlətimiz zaval görməsin!

***Əkbər QOŞALI***